**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA PEŞƏ TƏHSİLİ SİSTEMİNİN İNKİŞAFI VƏ MƏŞĞULLUĞA TƏSİRİNİN ARTIRILMASI

İxtisas: 5312.01-Sahə iqtisadiyyatı
Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **İntizar Mirzəli qızı Qurbanova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi AMEA İqtisadiyyat İnstitutunun Demoqrafiya və məşğulluq problemləri şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Cülənbər Arif qızı Əzizova**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Ramiz Kamal oğlu İsgəndərov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Lalə Fəqail qızı Mahmudova**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Kamran Hidayət oğlu İsayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: iqtisad elmləri doktoru, professor

________________ **Nazim Müzəffər oğlu İmanov**

Dissertasiya Şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru

________________ **Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor

________________ **Tərbiz Nəsib oğlu Əliyev**

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

**GİRİŞ**

**I FƏSİL. PEŞƏ TƏHSİLİ SİSTEMİNİN FORMALAŞMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**

1.1. Peşə təhsilinin mahiyyəti, vəzifələri və konseptual əsasları

1.2.Azərbaycanda peşə təhsili sisteminin quruluşu və hüquqi bazasının formalaşması xüsusiyyətləri

1.3. İnkişaf etmiş ölkələrin peşə təhsili sisteminin təşkili təcrübəsi

**II FƏSİL. AZƏRBAYCANDA PEŞƏ TƏHSİLİ SİSTEMİNİN MÜASİR VƏZİYYƏTİ, MƏŞĞULLUĞA TƏSİRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1. Azərbaycanda peşə təhsili və təlimi sisteminin vəziyyətinin təhlili

2.2. Azərbaycanda əmək bazarında məşğulluq vəziyyətinin və işçi qüvvəsinin təhsil səviyyələrinin təhlili

2.3. Əmək bazarında iş qüvvəsinə tələbin peşə strukturunun təhlili və mövcud peşə təhsili sisteminin ona uyğunluğunun qiymətləndirilməsi

2.4. Peşə təhsili sisteminin inkişafı ilə məşğulluq səviyyəsi arasındakı asılılığın (reqressiya-korrelyasiya əlaqələrinin) qiymətləndirilməsi

**III FƏSİL. AZƏRBAYCANDA PEŞƏ TƏHSİLİ VƏ MƏŞĞULLUQ QARŞILIQLI ƏLAQƏLƏRİNİN YAXŞILAŞDIRILMASI YOLLARI**

3.1.Azərbaycanda peşə təhsili sisteminin inkişafına təsir edən subyektlərin səmərəli fəaliyyətinin təşkili məsələləri

3.2. Azərbaycanda məşğulluğun artırılması baxımından peşə təhsili sisteminin inkişafının prioritet istiqamətləri

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Hər bir dövlətin yüksək səviyyəli, inkişaf etmiş sənaye ölkəsinə çevrilməsində əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanmasının əhəmiyyətli rolu vardır. Yeni texnika və texnologiyaların əmələ gəlməsi iqtisadiyyata faydalı kadrlar ola bilmək üçün insanların da intellektual inkişafını və təkmillləşməsini labüd edir. Müasir iqtisadiyyata hər hansı bir sahədə dar ixtisaslaşmış mütəxəssis yox, həm də fəaliyyət sahəsini çevik dəyişməyə və geniş əhatəli problemləri həll etməyə qadir işçilər lazımdır. Bu işdə təhsil sisteminin bütün pillələrinin, o cümlədən peşə təhsilinin üzərinə böyük məsuliyyət düşür. Buna görə də müasir peşə təhsili fasiləsiz olaraq öz ixtisas səviyyəsini yüksəltməyə hazır olan daha geniş profilli peşəkarların hazırlanması istiqamətində fəaliyyətini qurmalıdır. Qeyd etmək lazımdır ki, peşə təhsili müasir cəmiyyətdə iqtisadiyyatın yaxşılaşdırılması üçün əsas vasitədir və indi ona əvvəlkindən daha artıq səviyyədə dövlətin inkişaf strategiyasının ən vacib elementlərindən biri kimi baxılır.

Peşə təhsili verən tədris müəssisələrinin yarandığı dövrdən indiyədək keçdiyi inkişaf mərhələlərinin təhlili göstərir ki, iqtisadiyyatda hansı sahə inkişaf edirsə həmin sahə üçün fəhlə və xidməti işləri yerinə yetirən köməkçi vəzifələrə kadr ehtiyacı artır. Azərbaycanda peşə təhsilinə marağın yarandığı ilk dövrü araşdırarkən görürük ki, 1843-cü ildə Şəki Praktiki İpəkçilik Sənət Məktəbinin açılması həmin dövrdə ipəkçiliyin inkişafı ilə bilavasitə bağlıdır. Bundan sonra digər bölgələrimizdə də yeni-yeni sənət məktəbləri açılmışdır.

Sonrakı dövrlər – sənayenin inkişafı, yeni fabrik və zavodların açılması ixtisaslı fəhlə kadrlarına olan tələbatı artırdığından Fabrik Zavod Şagirdliyi məktəblərinin yaradılması, zamanın tələbinə uyğun olaraq iri istehsalat birliklərinin nəzdində Texniki Peşə Məktəblərinin sayının artırılması və s. faktları misal göstərmək olar.

Müasir dövrümüzü təhlil etsək, son illərdə müxtəlif xidmət sahələrinin – turizm, otelçilik, ailəvi istirahət məkanlarının, restoran

biznesinin və s. inkişafı peşə təhsilinə yeni-yeni ixtisasların daxil edilməsinə səbəb olmuşdur. Qeyd olunan sahələrin kadr təminatının yaxşılaşdırılması üçün beynəlxalq əməkdaşlıq çərçivəsində yeni Peşə Təhsil Mərkəzlərinin təsis edilməsi və s. fəaliyyətlərin müsbət addımlar olduğunu qeyd etmək olar.

Beləliklə, bütün yuxarıda qeyd edilənlər iqtisadiyyatın peşə təhsilinə birbaşa təsir etdiyini göstərir. Öz növbəsində yaxşı hazırlanmış peşə təhsilli kadrlar iqtisadiyyatın inkişafında mühüm rol oynayırlar.

Azərbaycanda hazırki sosial-iqtisadi şərait peşə təhsili sisteminin inkişafını və nüfuzunun artırılmasını ən vacib və aktual məsələlərdən biri kimi qarşıya qoyur. Belə ki, respublikamızda iqtisadi inkişafa nail olmaq üçün əhalinin, xüsusilə də gənc nəslin nümayəndələrinin məşğulluq səviyyəsinin yüksəldilməsi və işsizliyin minimuma endirilməsi həm də bir çox sosial-psixoloji, sağlamlıq, demoqrafik, miqrasiya, cinayətkarlıq hadisələri və başqa problemlərin də azalması baxımından ən əhəmiyyətli məsələlərdən biridir. Buna görə də insanların məşğulluğunun təmin olunması üçün onları yeniyetmə yaşlarından bilik və bacarıqlarına, daxili maraqlarına müvafiq peşəyə istiqamətləndirmək lazımdır. Heç şübhəsiz ki, ölkənin gələcəyi hesab olunan gənclər nə qədər keyfiyyətli və dünyagörüşünü artıran əhatəli təhsil alarlarsa, iqtisadiyyatın dayanıqlı inkişafına bir o qədər zəmin yaranar. Bütün qeyd olunanlar tədqiqat işinin mövzusunun müasir dövrün tələbləri baxımından aktuallığını bir daha təsdiqləyir.

*Problemin öyrənilmə səviyyəsi.* Peşə təhsilinə dair pedaqoji elmlər sahəsində tədqiqatçılar tərəfindən olduqca geniş və çoxyönlü tədqiqatlar aparılmışdır. Rusiyalı tədqiqatçılardan: O.N.Oleynikova, K.Q.Kazımov, A.A.Muravyova, N.V.Tyukalova, V.A.Qurtov və azərbaycanlı alim və tədqiqatçılarımızdan isə K.Q.Ağamalıyev, Z.H.Orucov, A.O.Mehrabov, R.B.Əsgərov, M.C.Mərdanov, İM.Mayılov və başqalarını misal göstərmək olar.

Məşğulluq və işsizlik problemləri isə iqtisadçı alimlər tərəfindən geniş aspektdə araşdırılmışdır. Məsələn, xarici alimlərdən: K. Marks, A. Piqu, D. Rikardo, A. Marşal, J. Sey, C.M.Keyns və s., Azərbaycan alim və tədqiqatçılarından: Ş.M.Muradov, C.B.Quliyev,

T.Ə.Quliyev, G.A.Əzizova, T.H.Hüseynov, R.Ş.Muradov, R.S.Abdullayeva, A.N.Muradov, F.Q.Musayeva, G.B.Nəsirova, T.Ə.Sərdarov və b. qeyd etmək olar.

Məşğulluq, işsizlik problemləri, demoqrafik problemlər daha geniş və əhatəli şəkildə Ş.M.Muradovun əsərlərində işıqlandırılmışdır. Peşə təhsili, fəhlə kadrlarının hazırlanması ilə bağlı məsələlərə T.Ə.Quliyevin, Ə.İ.Məmmədovun əsərlərində, həmçinin C.B.Quliyevin tədqiqatlarında geniş yer verilmişdir. Məşğul əhalinin və işsizlərin əmək bazarındakı vəziyyəti isə G.A.Əzizova tərəfindən ətraflı araşdırılmışdır.

Məşğulluq problemi gender bərabərliyi istiqamətində S.R.Ağayeva tərəfindən, məşğulluq siyasəti ilə bağlı məsələlər R.Ş.Muradov və R.Ç.Nəcəf tərəfindən tədqiq olunmuşdur. Azərbaycanda gənclərin məşğulluğu ilə bağlı problemlər G.B.Nəsirova tərəfindən tədqiq olunmuşdur.

Sadalanan problemlər müxtəlif aspektlərdən digər tədqiqatçıların: F.F.Mustafayev, N.(Müzəffərli) İmanov, Ə.X.Nuriyev, T.N.Əliyev, S.M.Mikayılova, M.X.Meybullayev, A.M.Əsədov, S.M.Seyidova, S.T.Şıxəliyeva, P.S.Həsənov, S.S.Mehbalıyev, R.K.İsgəndərov və b. əsərlərində də baxılmışdır. Peşə təhsili və ümumiyyətlə təhsil, məşğulluq, işsizlik məsələləri daha çox gəncləri əhatə edən problem kimi sosial yönümlü olduğundan sosioloq alimlərin də diqqət mərkəzindədir.

Onu da qeyd etmək lazımdır ki, müasir azərbaycanlı iqtisadçılarımızın əksəriyyətinin tədqiqatlarında məşğulluğun artırılm ası yolları arasında mütləq texniki peşə təhsilinin önəmi vurğulanır, lakin peşə təhsilinin məşğulluğa təsiri ayrıca tam bir mövzu şəklində işlənilməmişdir.

Mövzuya aid əksər xarici tədqiqatçıların əsərlərində peşə təhsilinə təhsildən məşğulluğa ən yaxşı keçid forması kimi yanaşılır. Onlardan, V. Eiçhorst, C. Dastman, U. Şonberg, P. Rayan, R. Almeida, J. Behrman, D. Robalino, Q. Kuvintini, S. Martin, Y.S.Sadovaya, V.A.Sautkina, E.A.Paxomova, L.D.Qerqanov, V.S.Qrinko və başqalarını misal göstərə bilərik. G. Ballot, F. Fakhfakh, E. Taymaz, E. Kolombo, L. Stanka; T. Zvik və s. alimlər

məhsuldarlığın artırılmasında təhsilin rolunu qiymətləndirmək üçün ekonometrik modellərin istifadəsinə əsaslanan tədqiqatlar aparmışlar.

Beləliklə, peşə təhsili sisteminin təkmilləşdirilməsi və əhalinin məşğulluq keyfiyyətinin yüksəldilməsi məsələlərinə ayrı-ayrı prizmalardan bir çox yerli və xarici tədqiqatçıların əsərlərində baxılmışdır.

**Tədqiqatın obyekti.** Tədqiqat işinin obyektini peşə təhsili və peşə hazırlığını reallaşdıran müəssisələr və əmək bazarı təşkil edir.

**Tədqiqatın predmetini** gənclərin peşə-ixtisas təhsili ilə əhatəliliyinin və peşə təhsili sisteminin inkişafına təsir edən amillərin öyrənilməsi, həmçinin peşə təhsilinin məşğulluğa təsirinin qiymətləndirilməsi təşkil edir.

Yuxarıda qeyd edilən tədqiqat işlərinin əhəmiyyətini azaltmadan bildirək ki, tərəfimizdən yerinə yetirilən dissertasiya işinin məramı hər iki vacib məsələni vəhdətdə: həm iqtisadçı, həm də təhsil meneceri nöqteyi-nəzərindən dərindən araşdırmaq, Azərbaycanın müasir peşə təhsili sisteminin üstün və problemli tərəflərini aşkara çıxarmaq, eyni zamanda peşə təhsili sisteminin inkişafının məşğulluğa təsirini təhlil edərək problemlərin həlli yollarını tapmaqdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada qarşıya qoyulan əsas məqsəd – peşə təhsili sisteminə aid yanaşmaları, qabaqcıl təcrübələri öyrənib ümumiləşdirərək Azərbaycan Respublikasında tətbiq olunması ilə peşə təhsili sisteminin təkmilləşdirilməsi və onun məşğulluğa təsirinin yaxşılaşdırılması, o cümlədən gənclərin peşə-ixtisas təhsili ilə səmərəli əhatə olunması ilə məşğulluğunun təşkili, beləliklə də, əmək ehtiyatlarından düzgün və səmərəli istifadə edərək əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün elmi cəhətdən əsaslandırılmış təkliflər işləyib hazırlamaqdan ibarətdir.

Dissertasiya işində qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin həll edilməsi nəzərdə tutulmuşdur:

- peşə təhsili sahəsinə aid yanaşmaların öyrənilməsi və ümumiləşdirilməsi;

● sistemin mövcud vəziyyətinin tədqiqi, üstün cəhətlərinin üzə çıxarılması və çatışmazlıqların aradan qaldırılması yollarının araşdırılması;

● peşə təhsilli kadrlara, peşə və bacarıqlara əmək bazarındakı ehtiyacların öyrənilməsi;

● müasir şəraitdə peşə təhsilinin məşğulluğa təsirinin sosial-iqtisadi qiymətləndirilməsi;

● peşə təhsili sisteminin inkişafına dair müasir meyllərin, qabaqcıl təcrübələrin öyrənilməsi və tətbiqi imkanlarının araşdırılması;

● Azərbaycanda peşə təhsili sisteminin inkişafı və məşğulluğa təsirinin yaxşılaşdırılmasına dair elmi cəhətdən əsaslandırılmış təkliflərin işlənib hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat prosesində elmi tarixi faktların tədqiqi, xronoloji ardıcıllıq, müşahidə, sorğuların təşkili, müqayisəli təhlil, statistik təhlil, statistik modelləşdirmə və məntiqi ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Peşə təhsilinə sosial təminat və hətta iqtisadi təhlükəsizlik kontekstindən yanaşılması daha doğru olar.

2. Əmək ehtiyatlarının, əməkqabiliyyətli əhalinin, xüsusilə də iqtisadi fəal əhalinin əmək potensialından faydalı istifadə olunması səmərəli məşğulluğun başlıca şərtlərindəndir.

3. Rəqabətqabiliyyətli peşə təhsilli kadrların hazırlanması üçün əmək bazarında peşələrə, peşə bacarıqları və şəxsi bacarıqlara qarşı dəyişən tələbatların nəzərə alınması əsasdır. İşəgötürənlər arasında sorğuların keçirilməsi həmin tələbatların vaxtlı-vaxtında öyrənilməsinə və ödənilməsinə imkan verir.

4. Peşə təhsilinin məşğulluğa həm birbaşa, həm də dolayı təsirləri vardır.

5. Peşə təhsili sisteminin inkişaf məsələsinə bu işdə mühüm rolu olan bütün əlaqədar tərəflərlə vəhdətdə baxılmalıdır.

6.Peşə təhsilinin əhatə dairəsini genişləndirmək və məşğulluğa təsirini yaxşılaşdırmaq işi regional səviyyədə aparılarsa daha səmərəli olar.

7. Peşə təhsilinin məşğulluğa təsirinin yaxşılaşdırılması onun keyfiyyətinin yüksəldilməsi və kontingent sayının artırılması ilə mümkündür. Bunun üçün isə 2 məsələ şərtdir: işəgötürənlərin dəstəyi və yeni iş yerlərinin yaradılması.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardır:**

1. Məşğulluğun təmin olunmasında mühüm rolu olduğuna görə peşə təhsilinə bir təhsil pilləsindən daha çox sosial təminat kontekstində yanaşılmasının məqsədyönlü olduğu əsaslandırılmışdır [9; 18].

2. Əmək bazarında məşğul əhalinin təhsil səviyyələri təhlil olunmuş, işəgötürənlərin peşələrə və bacarıqlara olan tələbatları ümumiləşdirilmişdir [15].

3. Peşə təhsilinin məşğulluğa həm birbaşa, həm də dolayı yollarla təsir edərək onu həm kəmiyyətcə, həm də keyfiyyətcə yüksəltdiyi izah edilmişdir [2; 17]:

-Peşə təhsili alanların sayı ilə məşğulluq arasındakı korrelyasiya-reqressiya əlaqələri hesablanmışdır [13].

-Müəssisədə peşə təhsilli personalın sayının artması ilə əmək məhsuldarlığı arasında müsbət asılılığın olduğu aydınlaşdırılmışdır [17].

4. Peşə təhsilinin inkişafında daha aşağı təhsil səviyyələrinin və digər subyektlərin mühüm rolu xarakterizə edilmiş, öhdəlikləri təsnifləşdirilmişdir [16].

5. Peşə təhsili sisteminin inkişafı və məşğulluğa təsirinin yaxşılaşdırılması üçün prioritet istiqamətlər müəyyənləşdirilmişdir [14; 19].

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada öz əksini tapan təkliflərdən təhsil sisteminin ayrı-ayrı səviyyələrinin, o cümlədən ümumtəhsil məktəbləri və peşə təhsili müəssisələrinin bir-biri ilə vəhdətdə, sistemli və nəticəyönümlü fəaliyyətinin təşkilində və iqtisadiyyatın dayanıqlı inkişafı üçün keyfiyyətli kadrlarla təmin olunması istiqamətində dövlət strategiyasının formalaşdırılmasında istifadə edilməsi əhəmiyyətli ola bilər.

Tədqiqat işində irəli sürülən praktik yönümlü tövsiyələrin peşə təhsili sisteminin inkişafı istiqamətində həyata keçirilən

məqsədyönlü konkret tədbirlərin müəyyən edilməsində istifadə olunması məqsədəuyğundur.

Tədqiqat işi üzrə aparılan araşdırmaların nəticələri elmi tədqiqat, tədris və metodiki vəsaitlərin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları, irəli sürülən təklif və tövsiyələr tezis və məqalələr şəklində Beynəlxalq və Respublika səviyyəli Konfranslarda məruzə edilmiş və elmi jurnallarda dərc olunmuşdur. Ümumilikdə, tədqiqat işi ilə bağlı 1-i xaricdə olmaqla 7 məqalə, 3-ü xaricdə olmaqla 12 tezis çap edilmişdir.

Tədqiqatın nəticələrinə uyğun hazırlanmış təklif və tövsiyələr AMEA İqtisadiyyat İnstitutunun rəsmi məktubu ilə birlikdə Peşə Təhsili üzrə Dövlət Agentliyinə təqdim edilmişdir.

**Dissertasiya işi AMEA İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.**

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya: giriş-15444 işarə, I fəsil - 81148 işarə, II fəsil - 77000 işarə, III fəsil - 60211 işarə, nəticə - 10734 işarə daxil olmaqla ümumilikdə 244537 işarədən ibarətdir. Dissertasiyada 23 cədvəl, 10 qrafik, 4 şəkil verilmişdir.

## MÜDAFİƏYƏ TƏQDİM OLUNAN ƏSAS ELMİ MÜDDƏALAR

**Müddəa 1. Peşə təhsilinə sosial təminat və hətta iqtisadi təhlükəsizlik kontekstindən yanaşılması daha doğru olar**.

Peşə təhsili təhsildən əmək bazarına ən asan və səmərəli keçid vasitəsi sayılır. Daha çox gəncin peşə təhsili alması işsizlik səviyyəsini aşağı salmaqla dövlətin yükünü azaldır və eləcə də işsizlikdən törəyən problemlərin qarşısını alır. Buna görə də gənclərin peşə-ixtisas təhsili ilə əhatəliliyinin yaxşılaşdırılması prioritet təşkil edir. İşsiz və işaxtaranlar zərurət yarandıqda peşə təlimi keçməklə daha tez işlə təmin oluna bilirlər ki, bu da işsizliyə görə müavinət alanların sayına təsir edir, başqa sözlə dövlətin sosial müdafiəsinə ehtiyacı olanların sayı azalır.

Fikrimizcə, peşə təhsilinə hətta iqtisadi təhlükəsizliyi təmin edən amillərin sırasında baxmaq olar. Ona görə ki, peşə təhsili sisteminin (PTS) inkişafı həm də iqtisadi təhlükəsizliyin əsas amillərindən biri sayılan həyat səviyyəsinin yüksəldilməsinə səbəb olur [18].

Cədvəl 1.-də ilk nəzərə çarpan odur ki, 1991-ci illə müqayisədə 1997-ci ildə peşə təhsili müəssisələrinin sayı 57 ədəd azalmışdır. Bunun səbəbi bir tərəfdən, illərlə respublikamızda formalaşmış planlı iqtisadiyyatın bitməsi, onun əvəzində tamamilə yeni bir iqtisadi quruluşun – bazar iqtisadiyyatının ölkəmizə təşrif gətirməsi ilə bağlı idisə, digər tərəfdən 20 faiz torpaqlarımızın işğalı, 12 peşə məktəbinin dağıdılması, 300 mindən artıq iş yerinin itirilməsi, 1 milyondan artıq insanın yaşayış və iş yerlərini itirməsi və s. çoxsaylı səbəblərlə bağlıdır.

Baxılan dövrdə peşə təhsili müəssisələrində təhsil alanların sayı kəskin surətdə azalaraq 1991-ci ildə 82188 nəfərdən 2003-cü ildəki ən az həddə–20753 nəfərə qədər gəlib çatmışdı. 2014-cü ilə qədər isə tədricən artma müşahidə olunmuşdur. Bu təhsil müəssisələrində təhsil alanların sayı 1991-ci ilə nisbətən 2000-ci ildə 72,1 azalmış, 2000-ci ilə nisbətən 2010-cu ildə 12,6 faiz artmış, 2010-cu ilə nisbətən 2020-ci ildə isə 9,3 faiz azalmışdır.

**Cədvəl 1. Peşə təhsili müəssisələrinin göstəriciləri (nəfər)**

| | PTM-lərin sayı | Orada tələbələrin sayı | Qəbul olunanların sayı | Bitirənlərin sayı | Müəllimlərin sayı | Qadın müəllimlərin sayı |
|---|---|---|---|---|---|---|
| 1991 | 176 | 82188 | 45030 | 49092 | 3465 | - |
| 1996 | 160 | 27689 | 12205 | 13461 | 1994 | 982 |
| 1997 | 119 | 25030 | 13265 | 13220 | 2069 | 1019 |
| 2000 | 108 | 22696 | 12946 | 12052 | 1939 | 996 |
| 2001 | 110 | 22944 | 12742 | 13104 | 1972 | 1033 |
| 2005 | 110 | 21563 | 12935 | 11095 | 1853 | 947 |
| 2010 | 108 | 25562 | 15743 | 13011 | 1996 | 1198 |
| 2013 | 108 | 30664 | 16066 | 16708 | 1794 | 1186 |
| 2014 | 112 | 29234 | 13225 | 15329 | 1804 | 1163 |
| 2015 | 113 | 25414 | 15354 | 15222 | 1684 | 1149 |
| 2016 | 113 | 24482 | 15856 | 15135 | 1673 | 1180 |
| 2017 | 112 | 23814 | 16617 | 14614 | 1733 | 1170 |
| 2018 | 111 | 24024 | 17393 | 15496 | 1638 | 1149 |
| 2019 | 111 | 23965 | 17124 | 15516 | 1635 | 1139 |
| 2020 | 110 | 23193 | 17140 | 14304 | 1528 | 1092 |
| 2021 | 103 | 22012 | 15734 | - | 1501 | 1091 |
| 2000-ci ilə nisbətən 2010-cu ildə,% | *Eyni* | *112,6* | *104,8* | *99,96* | *102,9* | *120,3* |
| 2010-cu ilə nisbətən 2020-ci ildə,% | *102,8* | *90,7* | *108,9* | *109,9* | *76,5* | *91,1* |

*Mənbə: Cədvəl AR DSK-nin məlumatları əsasında tərtib olunmuşdur.*

Təqribi hesablamalar göstərdi ki, hər il 40 minə yaxın gənc peşə və ixtisas təhsilindən kənarda qalır. Peşə təhsilinin şəbəkəsini genişləndirməklə, əlçatarlığını və cəlbediciliyini təmin etməklə (orta məktəblərdə ilk peşə təhsilinin verilməsi, tələbə təqaüdlərinin artırılması və s.) maddi imkansızlığa görə və yaxud bilik səviyyəsinin aşağı olduğuna görə əsas təhsildən və ya tam orta təhsildən sonra təhsilini davam etdirə bilməyən gənclərin də müəyyən peşə bacarıqları qazanmalarına şərait yaratmaq olar. Əks halda işsiz peşəsiz insanların kriminal hadisələrin üzvünə çevrilməyəcəyinə heç kim zəmanət verə bilməz.

Cədvəl 2.-dən göründüyü kimi, 14-17 yaşlı cinayət törədənlərin sayı hər il təxminən 400-500 nəfər olmasına baxmayaraq cinayət törədənlərin tərkibində təhsil alanların sayı 4-5 dəfə azdır. Belə görünür ki, 14-17 yaşlarda olan gənclərin heç də hamısı təhsilə cəlb olunmayıb. Deməli, peşə-ixtisas təhsilinə cəlb olunmayanların da sayı az deyil. Ən yüksək göstəricilər isə 18-24 yaş qrupu üzrədir, hansılar ki, məhz peşə-ixtisas təhsili almaq yaşında olan gənclərdir. Baxdığımız dövr üzrə 14-29 yaşlı gənclər cinayət törədənlərin orta hesabla 35 faizini təşkil edir. Təəssüflə qeyd olunmalıdır ki, belə hadisələrin iştirakçıları sırasında qadınlar (təqribən 6 %) da vardır və onların arasında 14-18 yaşlı gənc qızlara da rast gəlmək mümkündür.

**Cədvəl 2. Cinayət törətmiş şəxslərin sosial-demoqrafik əlamətlərinə görə bölgüsü**

| İllər | 2010 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi, nəfər** | **18689** | **14841** | **15560** | **16322** | **16676** | **16750** | **16727** | **17823** | **17482** |
| *yaşına görə* | | | | | | | | | |
| 14-15 yaş | 79 | 112 | 127 | 115 | 114 | 128 | 104 | 95 | 94 |
| 16-17 yaş | 360 | 402 | 354 | 362 | 328 | 358 | 367 | 292 | 294 |
| **14-17 yaşlılar** | **439** | **514** | **481** | **477** | **442** | **486** | **471** | **387** | **388** |
| *ümumi saya görə, %* | *2,3* | *3,5* | *3,1* | *2,9* | *2,7* | *2,9* | *2,8* | *2,2* | *2,2* |
| 18-24 yaş | 3367 | 2950 | 3045 | 2968 | 2855 | 2741 | 2456 | 2456 | 2116 |
| 25-29 yaş | 3270 | 2837 | 2915 | 2958 | 3147 | 3022 | 2937 | 3201 | 3245 |
| **14-29 yaşlılar** | **7076** | **6301** | **6441** | **6403** | **6444** | **6249** | **5864** | **6044** | **5749** |
| *ümumi saya görə, %* | *37,9* | *42,5* | *41,4* | *39,2* | *38,6* | *37,3* | *35,1* | *33,9* | *32,9* |
| 30 yaş və yuxarı | 11613 | 8540 | 9119 | 9919 | 10232 | 10501 | 10863 | 11779 | 11733 |
| *məşğuliyyətinə görə* | | | | | | | | | |
| fəhlələr | 523 | 427 | 389 | 395 | 352 | 344 | 341 | 1160 | 844 |
| Qulluqçular | 601 | 496 | 424 | 407 | 393 | 410 | 560 | 606 | 487 |
| təhsil alanlar | 122 | 109 | 117 | 88 | 76 | 108 | 71 | 95 | 81 |
| **əməkqabiliyyətli yaşda olub işləməyən və oxumayanlar** | **15535** | **11420** | **12008** | **11991** | **12751** | **12932** | **12679** | **10408** | **10474** |
| *ümumi saya görə, %* | *83,1* | *76,9* | *77,2* | *73,5* | *76,5* | *77,2* | *75,8* | *58,4* | *59,9* |

*Mənbə: Cinayətkarlıq 2016, 2021. Statistik məcmuə. s. 35, 41, 46 məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Bütün cinayət törədənlərin ümumi sayında heç bir məşğuliyyəti olmayan əmək qabiliyyətli şəxslər üstünlük (son illər 60 %-ə qədər) təşkil edir. Bu da onu bir daha sübut edir ki, faydalı bir işlə və yaxud təhsillə məşğul olanlar cinayətlərdən daha uzaqdırlar.

Nəzərə almaq lazımdır ki, bu gənclərin əksəriyyəti oğurluq edənlərdir, onlar sanki, bunu özlərinə peşə seçmişlər. Bu da ondan irəli gəlir ki, peşə-ixtisas təhsilləri yoxdur, özlərinə münasib iş tapmaqda çətinlik çəkirlər, maddi ehtiyaclarını ödəməyi əyri yollarda axtarırlar. Narkotik maddələrin dövriyyəsi ilə bağlı məhkum olunanların statistikasına baxsaq görərik ki, böyük əksəriyyəti işləməyən və oxumayanlar tərəfindən törədilir. Ümumiyyətlə, cinayət törədənlərin 70%-dən çoxunu işləməyən və oxumayan əməkqabiliyyətli şəxslər təşkil edir [9].

*Elmi işin mövzusuna bilavasitə aid olmasa da qeyd etməliyəm ki, gələcəkdə gənclərin cəmiyyət qanunlarına zidd davranışlara yol verməmələri üçün islam dini dəyərlərinin orta məktəblərin təlim-tərbiyə proqramına daxil edilməsi və doğru bir şəkildə tədris olunması çox vacibdir* [5].

**Müddəa 2. Əmək ehtiyatlarının, əməkqabiliyyətli yaşda əhalinin, eləcə də iqtisadi fəal əhalinin faydalı istifadə olunması məşğulluğun səmərəli şəkildə təmin olunmasının başlıca şərtlərindəndir.**

Əmək bazarında işləyənlərin və işaxtaranların peşə və ixtisasa malik olması çox vacibdir. Əmək bazarının tədqiqi göstərir ki, peşə və ixtisas təhsili almadan işə başlayanların sayı daha çoxdur. Əsas sosial iqtisadi göstəricilərin dinamikasına baxsaq görərik ki, baxılan dövrdə (qrafik 1.) hər üç göstərici üzrə artım müşahidə olunur. Belə ki, baxılan dövrdə əmək ehtiyatları 41,6 faiz, iqtisadi fəal əhali 20,2 faiz, məşğul əhalinin sayı 26,5 faiz artmışdır. Yalnız 2020-ci ildə pandemiya şəraiti ilə əlaqədar məşğul əhalinin sayı azalmışdır.




**Qrafik 1. Sosial-iqtisadi göstəricilərin dinamikası**
*Mənbə: Əmək bazarı. Statistik məcmuələr 2015-2021.*

1995-ci ildə Beynəlxalq Əmək Təşkilatı tərəfindən aparılan tədqiqatlara əsasən ölkə üzrə işsizlik səviyyəsi 17,2 faiz, 1999-cu ilin əhalinin siyahıya alınmasının məlumatlarına əsasən 16,3 faiz, 2003-cü ildə BMT-nin İnkişaf Proqramının və Beynəlxalq Əmək Təşkilatının iştirakı ilə respublikanın bütün ərazisində əhalinin iqtisadi fəallıq səviyyəsi üzrə keçirilmiş seçmə statistik müayinəyə əsasən 9,7 faiz təşkil etmiş, sonrakı illərdə rəsmi statistikaya görə ilbəil azalaraq 5 faizə çatmışdır. Lakin 2020-ci ildə işsizlərin xüsusi çəkisi artaraq 7,2 faiz təşkil edir. Belə ki, 2020-ci ildə iqtisadi fəal əhalinin sayı 5252,5 min nəfərə çatmış, onların da 375,9 min nəfəri işsizdir.




**Qrafik 2. İşsizliyə aid göstəricilərin dinamikası**
*Mənbə: Əmək bazarı. Statistik məcmuələr 2015-2021.*

*Əmək bazarında işçi qüvvəsinin təhsil səviyyəsinin təhlili.* Əmək bazarının əsas komponentlərini təşkil edən iqtisadi fəal

əhalinin, o cümlədən məşğul və işsiz əhalinin təhsil strukturunu təhlil etməzdən əvvəl, respublikamızda təhsil səviyyələri üzrə illik mütəxəssis buraxılışının dinamikası və quruluşunu nəzərdən keçirək.

**Cədvəl 3. Peşə və ixtisas təhsili müəssisələrində mütəxəssis buraxılışı sayı (nəfər) və quruluşu (%)**

| | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2015-ci ilə nisbətən 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | **47849** | **59399** | **58641** | **65359** | **69179** | **68419** | **64973** | **65503** | **69152** | **105,8** |
| Peşə təhsili müəs. bitirənlərin sayı | 12052 | 11095 | 13011 | 15222 | 15135 | 14614 | 15496 | 15516 | 14304 | 94,0 |
| *Xüsusi çəkisi* | *25,2* | *18,7* | *22,2* | *23,3* | *21,9* | *21,2* | *23,8* | *23,7* | *20,7* | *-2,6* |
| Orta ix. təh. müəs. bitirənlərin sayı | 11309 | 15796 | 14559 | 16432 | 17093 | 16299 | 12361 | 12425 | 14024 | 85,3 |
| *Xüsusi çəkisi* | *23,6* | *26,6* | *24,8* | *25,1* | *24,7* | *23,8* | *1,.0* | *19,0* | *20,3* | *-4,8* |
| Ali təhsili bitirənlərin sayı | 24488 | 32508 | 31071 | 33705 | 36951 | 37506 | 37116 | 37562 | 40824 | 121,1 |
| *Xüsusi çəkisi* | *51,2* | *54,7* | *53,0* | *51,6* | *53,4* | *54,8* | *57,1* | *57,3* | *59,0* | *7,4* |

*Mənbə: Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə 2017, 2019, 2021, s. 41, 42, 123 məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 3.-dən göründüyü kimi, peşə və ixtisas təhsili müəssisələrinin mütəxəssis buraxılışı baxılan dövr ərzində ümumilikdə artmışdır, son illiərdə onların sayı 70 minə yaxınlaşıb. Lakin bu rəqəmlər ümumi orta məktəbi və tam orta məktəbi bitirənlərin sayı ilə müqayisədə aşağıdır. Yuxarıda qeyd etmişdik ki, ildə 40 mindən artıq gənc peşə-ixtisas təhsilindən kənarda qalır.

Buraxılan mütəxəssislərin 60 faizə qədəri ali təhsil müəssisələrinin payına düşür. Peşə təhsili müəssisələri üzrə ən çox mütəxəssis buraxılışı 2013-cü ildə olmuş (16708 nəfər), sorakı illlərdə azalmışdır. 2020-ci ildə onların sayı 6 faiz azalaraq xüsusi çəkisi 2015-ci ildəkindən 2,6 faiz bəndi aşağı düşmüşdür.

2020-ci ildə iqtisadi fəal əhalinin 33,5 faizinin peşə və ixtisas təhsili var. Onların 16,6 faizi ali təhsilli, 11,2 faizi orta ixtisas təhsillidir.

2020-ci il üzrə iqtisadi fəal əhalinin 5,7 faizini (301,9 min nəfər) peşə təhsili olanlar təşkil edir ki, onların da 18,0 faizi 15-29 yaşlı gənclərdir.

Tədqiqatdan aydın olur ki, ümumilikdə məşğul əhalinin 66,4 faizinin, məşğul gənclərin isə 64,4 faizinin peşə-ixtisas təhsili yoxdur.

Cədvəl 4.-dən də göründüyü kimi, məşğul əhalinin 60 %-dən çoxu tam orta təhsillidir. Məşğul əhalinin tərkibində həm ali təhsillilərin, həm də orta ixtisas və peşə təhsillilərin sayı 2012-2020-ci illər ərzində tədricən artmışsa da, xüsusi çəkilərində əhəmiyyətli dəyişiklik yoxdur.

Məşğul əhalinin tərkibində peşə və ixtisas təhsili olanların 2020-ci ildə ümumilikdə xüsusi çəkisi 33,6%-dir, o cümlədən ali təhsillilər 16,9%; orta ixtisas təhsillilər 11,1%; peşə təhsillilər 5,6% təşkil edir.

Məşğul əhalinin 25,1%-i (1223,9 min nəfər) 15-29 yaşlı gənclərdən ibarətdir. Məşğul sayılan gənclərin 55,4%-i tam orta təhsil, 8,7 %-i əsas təhsil, 3,8%-i peşə təhsili, 11,0% orta ixtisas təhsili, 20,8%-i isə ali təhsil məzunlarıdır. Məşğul gənclərin 0,1%-i isə ibtidai təhsillidir.

Məşğul əhalinin təhsil səviyyələri və yaş qrupları üzrə təhlili göstərir ki, 2018-ci ildə ali təhsillilərin ən çoxu 20-24 yaşlı gənclərdir, ikinci üstünlük 55-59 yaş qrupuna aiddir. Peşə təhsili olanların tərkibində isə çoxluğu 35-39, 45-49, 40-44 yaş qrupları təşkil edir. Peşə və ixtisas təhsilinə sahib olmadan iş həyatına başlamış məşğul gənclərin sayı digərlərindən 16-18 dəfə çoxdur [13, s. 103].

## Cədvəl 4. Məşğul əhalinin təhsil səviyyələrinə görə bölgüsü (min nəfər)

| İllər | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **İqtisadiyyatda məşğul olanların ümumi sayı** | **4445,3** | **4521,2** | **4602,9** | **4671,6** | **4759,9** | **4822,1** | **4879,3** | **4938,5** | **4876,6** |
| 15-29 yaşlıların sayı | **1107,1** | **1116,8** | **1150,6** | **1177,5** | **1219,4** | **1237,1** | **1244,4** | **1250,5** | **1223,9** |
| məşğul əhaliyə nisbəti, % | *24,9* | *24,7* | *25.0* | *25,2* | *25,6* | *25,6* | *25,5* | *25,3* | *25,1* |
| ***Məşğul əhalinin təhsil səviyyələrinə görə bölgüsü, sayı (min nəfər) və nisbəti (%)*** | | | | | | | | | |
| **ali təhsillilərin sayı** | **722,7** | **732,4** | **750,1** | **763,3** | **781,4** | **796,9** | **814,8** | **829,7** | **824,3** |
| *məşğul əhaliyə nisbəti* | *16,3* | *16,2* | *16,3* | *16,3* | *16,4* | *16,5* | *16,7* | *16,8* | *16,9* |
| **orta ixtisas təhsillilər** | **457,9** | **470,3** | **485,9** | **497,5** | **507,6** | **516,4** | **536,7** | **548,2** | **540,8** |
| *məşğul əhaliyə nisbəti* | *10,3* | *10,4* | *10,55* | *10,6* | *10,7* | *10,7* | *11,0* | *11,1* | *11,1* |
| **peşə təhsillilər** | **238,6** | **239,6** | **248,6** | **256.0** | **253,2** | **260,5** | **268,4** | **276,5** | **272,6** |
| *məşğul əhaliyə nisbəti* | *5,4* | *5,3* | *5,4* | *5,5* | *5,3* | *5,4* | *5,5* | *5,6* | *5,6* |
| **tam orta məktəbi bitirənlər** | **2710,5** | **2776.0** | **2795,1** | **2820,5** | **2876,6** | **2892,6** | **2932,5** | **2949,3** | **2911,3** |
| *məşğul əhaliyə nisbəti* | *60,97* | *61,4* | *60,7* | *60,4* | *60,4* | *59,98* | *60,1* | *59,7* | *59,7* |
| **əsas təhsili bitirənlər** | **275,6** | **271,3** | **286,1** | **292,2** | **298,3** | **306,6** | **287,9** | **296,3** | **291,6** |
| *məşğul əhaliyə nisbəti* | *6,2* | *6.0* | *6,2* | *6,3* | *6,3* | *6,4* | *5,9* | *5,6* | *6,0* |
| **ibtidai təhsillilər** | **40.0** | **31,6** | **37,1** | **42,1** | **42,8** | **49,1** | **39,0** | **38,5** | **36,0** |
| *məşğul əhaliyə nisbəti* | *0,9* | *0,7* | *0,8* | *0,9* | *0,9* | *1,0* | *0,8* | *0,8* | *0,7* |

*Mənbə: AR DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

2020-ci ildə işsizlərin 33,3 faizinin peşə və ixtisas təhsili vardır, o cümlədən: ali təhsillilər 12,5 faiz, orta ixtisas 13 faiz, peşə təhsilli 7,8 faiz. 2020-ci ildə işsizlərin ümumi sayı 375,9 min nəfərdirsə bunların 154,1 nəfərini (41 faizə qədərini) 15-29 yaşlı gənclər təşkil edir, hansı ki, 107, 8 min nəfərinin (73,1 %) heç bir peşə və ixtisas təhsili yoxdur. İşsiz gənclərin yalnız 26,9 faizi peşə və ixtisas təhsili (o cümlədən ali təhsilli 10,6 faiz, orta ixtisas 11,9 faiz,

peşə təhsilli 4,4 faiz) almışdır. Peşə və ixtisas təhsili olan gənclərin isə 44,2 faizi ali, 39,4 faizi orta ixtisas, 16,4 faizi peşə təhsillidir.

Yuxarıdakı göstəricilər deməyə əsas verir ki, ölkəmizdə gənclərin peşə və ixtisas təhsili ilə əhatəliliyi qənaətbəxş deyil. Buna görə də peşə-ixtisas təhsili almış gənclərin mövcud potensialından maksimum səmərəli istifadə edilməli, peşə və ixtisas təhsili olmayan gənclərin isə müəyyən peşə və sənətə sahib olmaları və məşğulluğunun təmini üçün məqsədyönlü və kompleks tədbirlər görülməlidir.

**Müddəa 3. Rəqabətqabiliyyətli peşə təhsilli kadrların hazırlanması üçün əmək bazarında peşələrə, peşə bacarıqları və şəxsi bacarıqlara qarşı dəyişən tələbatların nəzərə alınması əsasdır. İşəgötürənlər arasında sorğuların keçirilməsi həmin tələbatların vaxtlı-vaxtında öyrənilməsinə və ödənilməsinə imkan verir.**

Tədqiqatlara əsasən kənd təsərrüfatı, emal sənayesi, turizm, sosial xidmət və iaşə, kompüter texnologiyası, nəqliyyat vasitələrinin təmiri sahələri üzrə daha çox mütəxəssis tələb olunduğunu söyləmək olar. Regional inkişaf proqramlarının həyata keçirilməsi sayəsində kənd təsərrüfatı üçün aqronomluq, bitkiçilik, heyvandarlıq, arıçılıq mütəxəssislərinə tələbatın artacağı mümkündür.

Peşə təhsili müəssisələrinə müraciət edənlərin çoxu aşpaz, dərzi, kompüter operatoru peşəsini seçir, daha sonra seçilən peşələr arasında veb-dizayner, kompüter ustası, bərbər, avtomobil üzrə elektrik, geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər, elektrik avadanlıqlarına xidmət və təmiri mütəxəssisi peşələri də üstünlük təşkil edir.

İşəgötürənlər arasında aparılmış sorğular iqtisadiyyatın prioritet sahələri olan kənd təsərrüfatı, sənaye, turizm, İKT üzrə mütəxəssislərə ehtiyac olduğunu göstərir. Təbii ki, həmin sahələrdəki iqtisadi artım peşə kadrlarına olan ehtiycı da artırır. Deməli, gələcək illərdə də kənd təsərrüfatı, turizm, İKT, mədəni xidmət sahəsində peşə təhsilli kadrlara tələbat olacaq. İşğaldan azad olunmuş torpaqlarımızda yaşayışın bərpa edilməsilə bu tələbatlar daha da artacaq. Ona görə də aşağıdakı sahələr üzrə kadrların hazırlanması diqqət mərkəzində olmalıdır:

1. İKT və elektronika sahəsində kadrlara ehtiyac var və bundan sonra daha da artacaq. Pandemiya dövrü göstərdi ki, rəqəmsal texnologiyalar üzrə mütəxəssislərə ehtiyac artır və hər kəsin bu texnologiyalardan istifadə bacarıqlarının artırılmasına ehtiyac var.

2. Elə peşələr var ki, onlara hər zaman, hər yerdə ehtiyac olur, hansı ki, bir çoxu orta məktəblərdə öyrədilə bilər. Məsələn, dərzi, bərbər, məişət cihazlarının təmirçisi, kompüter istifadəçisi və s.

3. Turizm imkanları geniş olan bölgələrdə profilə uyğun peşə təhsili müəssisələrinin yaradılması və peşəkar kadrların hazırlanması məqsədəuyğundur. Azad olunmuş torpaqlarımızın turizm potensialının genişliyini nəzərə alsaq, həmin bölgələrdə bu tipli Peşə Təhsil Mərkəzlərinin tikilməsinə böyük ehtiyac var.

4. Qarabağ, Kəlbəcər-Laçın bölgələrində aqrar-emal, əlvan metallurgiya, yeyinti və yüngül sənaye, tikinti sahələri üçün kadrlar hazırlanmalıdır.

5. Kənd təssərrüfatı texnikası, robototexnika, maşın və avadanlıqlardan istifadə və təmiri üzrə müvafiq sayda yüksək ixtisaslı texniki peşə kadrlarının hazırlanması labüddür. Bir neçə bölgədə aqrosənaye parklarının nəzdində texniki- peşə təhsili verən məktəblər yaradılmalıdır. Eləcə də nəqliyyat vasitələrinin təmiri üzrə mütəxəssislərin hazırlanması aktual olaraq qalır.

6. Kənd təsərrüfatı üçün heyvandarlıq üzrə mütəxəssislərin hazırlanması (o cümlədən baytarlar) rayonların tələbatları hesaba alınaraq davam etdirilməlidir. Bitkiçilik, arıçılıq, ətraf mühitin mühafizəsi üzrə, həmçinin kənd təsərrüfatından əldə edilən meyvə, tərəvəzin və heyvandarlıq məhsullarının emal sahələri üzrə mütəxəssislər hazırlanmalıdır [19].

**Müddəa 4. Peşə təhsilinin məşğulluğa həm birbaşa, həm də dolayı təsirləri vardır.**

Belə ki, peşə-ixtisas təhsili alanların sayının artması məşğulluq səviyyəsinin artmasına müsbət təsir edir. Müəssisədə peşə təhsilli personalın sayının artması isə məhsuldarlığın artmasına səbəb olur ki, bu da son nəticədə məşğulluğa müsbət təsir etmiş olur.

Peşə-ixtisas təhsilinin məşğulluğa birbaşa təsirini bilmək üçün korrelyasiya-reqressiya təhlilinin köməyi ilə iqtisadi-riyazi modelin qurulmasında aşağıdakı göstəricilərdən istifadə edəcəyik.

Aşağıdakı dəyişənlər üzrə aldığımız korrelyasiya əmsallarına baxsaq (cəd. 5) görərik ki, məşğul əhalinin sayı ilə ən sıx əlaqə ali təhsili bitirənlərin sayı ilədir, ikinci yerdə peşə təhsilini bitirənlərdir.

**Cədvəl 5. Reqressiya tənliyinin qurulması üçün dəyişənlər cədvəli**

| Dəyişənlər | Amillər | Ölçü vahidləri | Korrelyasiya əmsalları |
|---|---|---|---|
| Y | Məşğul əhalinin sayı | min nəfər | |
| $X_1$ | Peşə təhsilini bitirənlərin sayı | nəfər | 0,804535 |
| $X_2$ | Məşğulluq xidməti tərəfindən peşə təliminə göndərilənlərin sayı | nəfər | 0,702942 |
| $X_3$ | Orta ixtisas təhsilini bitirənlərin sayı | nəfər | 0,488638 |
| $X_4$ | Ali təhsili bitirənlərin sayı | nəfər | 0,848812 |

*Excel* proqramında peşə təhsilini bitirənlər ilə məşğul əhalinin sayı arasında reqressiya əlaqəsi hesablanmışdır. Determinasiya əmsalı $R_{kvadrat}=0{,}647$ peşə təhsili müəssisələrini bitirənlərin sayı ilə məşğul əhalinin sayı arasında 64,7% asılılıq olduğunu göstərir.

Düzxətli əlaqə tənliyinin düsturu $\overline{y}_x = a_0 + a_1 x$; parametrlər $a_0$=2417,110; $a_1$=0,142 olduqda aşağıdakı reqressiya tənliyini alarıq:

$$\overline{y}_x = 2417{,}110 + 0{,}142 \times x \qquad (1)$$

Elastiklik əmsalı: $E = a_1 \times \frac{\overline{x}}{\overline{y}} = 0{,}142 \times \frac{13142}{4278{,}7} = 0{,}142 \times 0{,}000426$

Deməli, peşə təhsilini bitirənlərin sayı 1% artarsa, məşğul əhalinin sayı cəmi 0,00043 % artar [15, s. 108].

Peşə təhsilinin məşğulluğa dolayı təsirini ölçmək üçün SOCAR-ın Etilen-Polietilen zavodundan götürülmüş göstəricilər əsasında müəssisədə kadrların təhsil səviyyəsi ilə əmək məhsuldarlığı arasındakı asılılığı qiymətləndirmişik. Cədvəl 6.-dan göründüyü kimi 2015-ci ildən 2018-ci ilədək əmək məhsuldarlığı müntəzəm olraq artmışdır. Bu da ali və peşə təhsillilərin sayının artması ilə əlaqədar ola bilər, belə ki, 2015-ci ildə işçilərin cəmi 11,1%-i peşə, 24,2%-i

ali təhsillilər idisə, 2018-ci ildə işçilərin 24,1%-ini peşə, 38,65%-ini ali təhsillilər təşkil edir.

**Cədvəl 6. Etilen-Poletilen zavodunun kadrlar üzrə əsas göstəriciləri (2011-2018-ci illər)**

| Amillər | Ölçü vahidi | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| İşçilərin ümumi sayı | nəfər | 2234 | 2132 | 1835 | 1781 | 1717 | 1682 | 1706 | 1697 |
| *o cümlədən* | | | | | | | | | |
| orta təhsilli | nəfər | 1112 | 1046 | 884 | 768 | 615 | 528 | 473 | 496 |
| peşə təhsilli | nəfər | 173 | 125 | 143 | 162 | 190 | 215 | 414 | 409 |
| orta ixtisas təhsilli | nəfər | 484 | 535 | 372 | 431 | 496 | 483 | 137 | 136 |
| ali təhsilli | nəfər | 465 | 426 | 436 | 420 | 416 | 456 | 682 | 656 |
| Bir nəfərə düşən orta aylıq əmək haqqı | Man | 400 | 532 | 581 | 624 | 605 | 664 | 697 | 736 |
| Əmək məhsuldarlığı | min man. | 62,85 | 57,47 | 76,63 | 102,81 | 92,46 | 128,24 | 158,24 | 170,98 |

*Mənbə: SOCAR-ın Etilen-Polietilen zavodunda aparılan sorğu.*

**Cədvəl 7. Dəyişənlər cədvəli**

| Dəyişənlər | Amillər | Ölçü vahidləri | Korrelyasiya əmsalı |
|---|---|---|---|
| Y | Əmək məhsuldarlığı | min manat | |
| $X_1$ | Peşə təhsillilərin sayı | nəfər | 0,918255 |
| $X_2$ | Orta ixtisas təhsillilərin sayı | nəfər | -0,83124 |
| $X_3$ | Ali təhsillilərin sayı | nəfər | 0,830411 |
| $X_4$ | Orta təhsillilərin sayı | nəfər | -0,90445 |
| $X_5$ | Bir nəfərə düşən orta aylıq əmək haqqı | Manat | 0,881702 |

Korrelyasiya əmsallarından görürük ki, müəssisədə təhsil səviyyələri üzrə əmək məhsuldarlığı arasında ən güclü əlaqə peşə təhsillilərin sayı ilədir. Tədqiqat işimizin məqsədinə uyğun olaraq müəssisədə çalışan peşə təhsilli işçilərin sayının əmək məhsuldarlığı ilə asılılığının reqressiya tənliyini qurmuşuq.

Determinasiya əmsalı $R^2$=0,843. Deməli müəssisədə çalışan peşə təhsilli işçilərin sayı ilə əmək məhsuldarlığı arasında güclü asılılıq (84,3%) mövcuddur. Parametrlər: $a_0$= 28,975; $a_1$=0,337. Reqressiya modeli aşağıdakı kimi olacaqdır:

$$\bar{y}_x = 28{,}975 + 0{,}337 * X_1 \qquad (5)$$

Elastiklik əmsalı:

$$E = a_1 \times \frac{\bar{x}}{\bar{y}} = 0{,}337 \times \frac{228{,}875}{106{,}21} = 0{,}337 \times 2{,}155 = 0{,}72455$$

Deməli, müəssisədə peşə təhsillilərin sayı 1% artarsa, məhsuldarlıq 0,7 % artar [17].

Əmək bazarında fəaliyyət göstərən müəssisələrin məhsuldarlığının artması həm də istehsalın genişləndiirilməsinə, eləcə də yeni iş yerlərinin artırılmasına yol açır, nəticədə əhalinin iş təminatı yüksəlir. Beləliklə də peşə təhsilinin məşğulluq səviyyəsinə dolayısı ilə müsbət təsiri özünü göstərir. Yəni, peşə təhsili sisteminin inkişaf etdirilməsi vasitəsilə məşğulluq səviyyəsinin həm kəmiyyət, həm də keyfiyyət baxımından yaxşılaşdırılması mümkündür.

**Müddəa 5. Peşə təhsili sisteminin inkişafı bütün əlaqədar tərəflərlə vəhdətdə baxılmalıdır.**

Təhsil sistemi açıq sistem olduğundan təsir edən tərəflər çoxdur. Xüsusilə də peşə təhsilinin inkişafına orta məktəblərdən başlanılması vacibdir. Bütövlükdə təhsil sisteminin ali məqsədi ölkə və cəmiyyət üçün faydalı insan yetişdirməkdir. Təhsilin ən aşağı pilləsindən başlayaraq bu məqsədə doğru irəliləmək lazımdır. Orta məktəb təhsilinin keyfiyyətinin artırılması ilə bağlı məsələlələr həllini taparsa, artıq peşə təhsili sistemini müasir tələblərə uyğun inkişaf etdirmək sahəsində tədbirlər də keyfiyyətlə həyata keçirilə bilər. Lakin burada müxtəlif tərəflərin də rolu vardır.

Peşə təhsilinin inkişafında rolu olan əsas tərəfləri və onların əsas öhdəliklərini ümumiləşdirilmiş şəkildə aşağıdakı kimi vermək olar [16]:

| **Tərəflər** | **Öhdəliklər** |
|---|---|
| **Dövlət** | *tənzimləmə, əlaqələndirmə, dəstəkvermə, nəzarətetmə, qanunvericilik və maliyyələşdirmə baxımından stimullaşdırma* |
| **Yerli icra orqanları (bələdiyyələr)** | *yerli işəgötürənlərlə və sponsorlarla əlaqələrin yaradılmasına kömək etmək, müvafiq yerli sahələrdə şagirdlərin istehsalat təcrübəsinin təşkili üçün dəstək vermək* |
| **Orta məktəblər** | *istedadlı, bacarıqlı, əməksevər, geniş dünya görüşünə malik,vətənpərvər, müstəqil fikirli şagirdlər hazırlamaq; şagirdlərə peşələri tanıtmaq (sevdirmək) və doğru peşə seçiminə yönləndirmək (peşə seçimi üzrə məsləhətçinin olması)* |
| **Peşə təhsili müəssisələri** | *əmək bazarındakı ehtiyaclara uyğun kadrlar hazırlamaq, qanunauyğun şəkildə əlavə gəlir mənbələrindən yararlanmaq, təşəbbüskarlıq, inovasiyalara açıq olmaq, işgüzar əməkdaşlıqlar yaratmağa meyllilik* |
| **Peşə təhsili üzrə Dövlət Agentliyi** | *koordinasiya, təşəbbüskarlıqların dəyərləndirilməsi, kadr potensialının müntəzəm təkmilləşdirilməsi, metodiki təminat, keyfiyyətin yoxlanılması, monitorinq, obyektiv qiymətləndirmə* |
| **Məşğulluq xidməti** | *əmək bazarının təhlili, sorğuların keçirilməsi, sahibkarların cari və perspektiv ehtiyaclarının müəyyənləşdirilməsi və məlumatların ötürülməsi, tələb və təklifin tarazlığının təmini üçün Peşə Agentliyi ilə birlikdə peşələrə və bacarıqlara olan tələbatları nəzərə almaqla proqnozların hazırlanması* |
| **İşəgötürənlər** | *əməkdaşlığa meyllilik, kadrlara ehtiyac və tələblərini müntəzəm olaraq bildirmək, gənclərin yaxşı kadrlar kimi hazırlanmasına, təcrübə toplamasına və iş təminatına dəstək vermək* |
| **Valideyinlər** | *övladlarının hərtərəfli və keyfiyyətli təlim-tərbiyə almasına və fiziki və mənəvi cəhətdən sağlam yetişməsinə çalışmaq, onlarla gözəl ünsiyyət qurmaq, dini-əxlaqi dəyərləri öyrətmək, zəhmətsevərliyi aşılamaq, orta məktəblə qarşılıqlı fəaliyyət göstərərək uşaqları gələcək ailə və iş həyatına hazırlamaq, peşə seçimini dəstəkləmək* |

**Şəkil 1. Peşə təhsilinin inkişafında əsas rolu olan tərəflərin öhdəlikləri**

*Mənbə: Müəllifin şəxsi mülahizələri əsasında hazırlanmışdır.*

Ölkəmizdə peşə təhsilinə çəkilən dövlət xərcləri baxmayaraq ki, 2016-ci illə müqayisədə 2021-ci ildə 52,2 faiz artırılmışdır, maddi-texniki bazanın yaxşılaşdırılması, yeni tədris binalarının və yataqxanaların inşaası, tələbələrin təqaüdlərinin artırılması və s. üçün bu kifayət etmir.




**Qrafik 3. Peşə təhsilinə ayrılmış büdcə xərclərinin dinamikası**
*Mənbə:AR-nın 2016-2021-ci illərin büdcə qanunları*

Peşə tədris müəssisələrinin illik büdcəsinin əsas hissəsi əməkhaqqı, tələbə təqaüdləri və sığorta ödənişlərini əhatə edir. Lakin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorlarının strateji yol xəritəsi"nin əsas prioritetini peşə təhsili sisteminə xərclərin artırılması və işəgötürənlərin vəsaitlərinin peşə təliminə cəlb olunması təşkil edir. Peşə təhsili sisteminin maliyyələşməsində iştirak edə biləcək mümkün maliyyə mənbələrini aşağıdakı şəkildəki kimi vermək olar:




**Şəkil 2. Peşə təhsili sisteminin maliyyə mənbələri**
*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

**Müddəa 6. Peşə təhsilinin əhatə dairəsini genişləndirmək və məşğulluğa təsirini yaxşılaşdırmaq işi regional səviyyədə aparılarsa daha səmərəli olar.**

Hər bölgənin, rayonun özünəməxsus coğrafi, iqlim şəraiti və iqtisadi cəhətdən ixtisaslaşması vardır (kənd təsərrüfatının ayrı-ayrı sahələri, turizm, kurort-sağlamlıq imkanları və s.). Həmin ixtisaslaşmalara uyğun peşələr üzrə və daha çox istifadə olunan məişət və elektron əşyalarının təmiri ustalarına, mədəni xidmət sahələri üzrə kadrlara ehtiyac olduğunu nəzərə alaraq çox vəsait tələb etməyən peşələrin orta məktəblərdə öyrədilməsi mümkündür.

Azərbaycanda regionların tarazlı inkişafını təmin etmək üçün hər bir iqtisadi rayonda dövlət-biznes-peşə təhsili müəssisələrinin qarşılıqlı əməkdaşlıqda fəaliyyətini təmin edən Təhsil klasterlərinin yaradılması məqsədəuyğun olar. Dünya praktikasında da biznes nümayəndələrini peşə təhsili ilə əməkdaşlığa cəlb etməyin əsas istiqamətlərindən biri *təhsil klasterlərinin* yaradılması hesab olunur. Peşə təhsili sistemində klasterlərin fəaliyyəti bütün növ peşə təhsili

müəssisələrinin, regional hökumət orqanlarının, yerli idarəetmə orqanlarının və yerli müəssisələrin qarşılıqlı fəaliyyətinə əsaslanır.

Eləcə də Məşğulluq xidmətinin nəzdindəki Regional Peşə Tədris Mərkəzlərinin sayını artırmaqla işsiz və işaxtaranların peşə təliminə cəlb edilməsi və yerli əmək bazarının kadr ehtiyaclarının səmərəli şəkildə ödənilməsi vasitəsilə regionların inkişafına nail olmaq olar.

Ümid edirik ki, işğaldan azad olunmuş bölgələrimizdə yaşayışın bərpası iş yerlərinin sayının artmasına, peşə təhsilinin şəbəkəsinin genişlənməsinə və regionlarda məşğulluğun yüksəldilməsinə təkan verəcək.

**Müddəa 7. Peşə təhsilinin məşğulluğa təsirinin artırılması üçün 2 məsələ şərtdir: işəgötürənlərin dəstəyi və yeni iş yerlərinin yaradılması.**

Peşə təhsili alanlarının sayının artırılması hələ o demək deyil ki, məşğulluq səviyyəsi artacaq. Bu məsələnin reallaşması üçün iki mühüm məsələ diqqət mərkəzində olmalıdır: işəgötürənlərin yaxın əməkdaşlığı və yeni iş yerlərinin yaradılması. İşəgötürənlər peşə təhsilli kadrların hazırlanmasında bilavasitə iştirak etməsələr keyfiyyət istənilən səviyyədə olmayacaq, ikinci tərəfdən, yeni iş yerləri olmasa bu kadrlar harada işləyəcəklər? Sadəcə olaraq diplomlu işsizlərin sayı artacaq.

Son illərdə açılmış yeni iş yerlərinin regionlar üzrə sayı barədə statistik göstəricilərə baxsaq görərik ki, 2014-2021-ci illər ərzində respublika üzrə ümumilikdə 1312051 iş yeri açılmışdır. Lakin yeni iş yerlərinin yarıdan çoxu Bakı şəhərinə aiddir, o cümlədən 2020-ci ildə yeni açılmış iş yerlərinin 69,3 faizi, 2021-ci ildə 77,1 faizi Bakı şəhərinin payına düşür. Bölgələr arasında isə Aran zonasında daha çox iş yeri açılmışdır.

Torpaqlarımız işğal olunan zaman orada 300 mindən artıq iş yeri itirilmişdi. Artıq orpaqlarımızın böyük hissəsi işğaldan azad olunub, infrastruktur bərpa olunduqdan sonra isə 100 minlərlə iş yerləri yaradılacaq. Lakin digər bölgələrimizdə də yeni istehsal müəssisələrinin təşkilinə, kənd təsərrüfatının inkişafına, aqrokomplekslərin yaradılmasına və s. tədbirlərə ehtiyac vardır.

**Tədqiqat işi üzrə aşağıdakı nəticələrə gəlinmişdir:**

Beləliklə, mövzu üzrə araşdırmalardan əldə edilmiş əsas nəticələri qısaca olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1. *Maddi-texniki bazanın köhnəliyi*, 40-a yaxın peşə təhsili müəssisəsinin tədris binalarında məcburi köçkünlərin məskunlaşması, yataqxana imkanlarının olmaması həm lazım olan səviyyədə kadrların hazırlanmasına, həm də gənclərin daha çox hissəsinin peşə təhsili ilə əhatə olunmasına imkan vermir. Müasir tələblərə uyğun peşə təhsilli kadrların hazırlanması üçün bu təhsil müəssisələrinin özlərinin də kadr potensialının təkmilləşdirilməsinə ehtiyac vardır.

2. Təhsil Nazirliyi nəzdində Peşə təhsili üzrə Dövlət Agentliyi fəaliyyətə başladıqdan sonra müsbət yöndə addımlar atılır. Lakin son illərdə görülən tədbirlərə baxmayaraq peşə təhsilində kontingent sayı artmır. Bu isə peşə təhsilinin nüfuzunun hələ də aşağı olması, təqaüdlərin azlığı, iş təminatının olmaması ilə bağlıdır.

3. Gənclərin peşə təhsilinə az müraciət etməsi həm də onların peşələr haqqında az məlumatlı olması ilə əlaqədardır. Əsas səbəblərdən biri kimi isə orta məktəblərdə *peşəyönümü işinin zəif təşkilini* hesab etmək olar.

4. Peşə təhsili sisteminin inkişafı yalnız peşə təhsili müəssisələrinin müsbət fəaliyyətindən asılı deyil, burada bir çox tərəflərin də rolu vardır. O cümlədən orta məktəblərdən gələn məzunların hazırlığından da çox şey asılıdır. Onların peşə öyrənməyə həvəsi azdır, bu isə ilk növbədə səmərəli *əməktəlimi dərslərinin və emalatxanaların olmaması*, ilkin əmək vərdişlərinin formalaşdırılmaması ilə bağlıdır.

5. *İşəgötürənlərin dəstəyinin olmaması.* Bazar iqtisadiyyatı şəraitində peşə təhsili əsasən işəgötürənlərin sifariışi əsasında təşkil edilməlidir. Lakin Azərbaycanda işəgötürənlər təcrübəli, peşəkar və şəxsi bacarıqlara malik kadrlar axtarmalarına baxmayaraq, belə kadrların hazırlanmasına vəsait sərf etməkdə maraqlı deyildirlər. Halbuki onlar öz məsuliyyətlərini görməli və öhdəliklərini də qəbul etməlidirlər.

6. İşəgötürənlər Məşğulluq idarələri ilə də zəif əlaqə saxlayır, çox vaxt formallıq xatirinə vakansiyalar təqdim edir, onlara

göndərilmiş kadrlara etinasız yanaşırlar. Onlar özlərinə lazım olan peşələr və bacarıqlar barədə vaxtında və müfəssəl məlumatlar versələr və sifarişlərinin operativ yerinə yetirilməsinə dəstək göstərsələr kadr tələbatlarının vaxtında və keyfiyyətlə ödənilməsinə nail ola bilərlər.

7. Əmək bazarında işləyənlərin yalnız 5,6 faizə qədəri peşə təhsillidir. Peşə və ixtisas təhsili almadan iş fəaliyyətinə başlayan gənclərin sayı (təqribən 64 %) daha çoxdur. Həm belə gənclərin, həm işsizlərin, həm də təhsilini yarımçıq qoyan gənclərin peşə təhsilinə cəlb edilməsi üçün mühüm tədbirlərin görülməsi, o cümlədən də peşə təhsili və hazırlığı şəbəkəsinin genişləndirilməsi və əlçatarlığın təmini tələb olunur.

8. Etilen-Polietilen zavodunun timsalında sübut olundu ki, müəssisədə peşə təhsilli kadrların sayının 1,0 faiz artması əmək məhsuldarlığını 0,7 faiz artırır. Bu isə öz növbəsində istehsalın genişləndirilməsinə və yeni iş yerlərinin açılmasına səbəb olmaqla məşğulluq səviyyəsinə müsbət təsir göstərmiş olur.

9. *Peşə təhsilinin inkişafı regionların inkişafı ilə həmahəngdir.* Peşə təhsili region-region inkişaf edə bilər. Bunun üçün yerli əhalinin, bələdiyyələrin, təhsil müəssisələrinin, biznes müəssisələrinin, fermerlərin, işəgötürənlərin əlbir olub öz regionunun inkişafı üçün səmərəli əməkdaşlıq qurmaqda təşəbbüskar olması lazımdır ki, gənclər iş axtarmaq üçün uzaq şəhərlərə üz tutmasınlar, öz bölgələrində lazımi peşələrə yiyələnib regionun inkişafında bilavasitə iştirak etsinlər və həyat səviyyələri yüksək olsun.

10. *Maliyyə mənbələrinin azlığı.* Yalnız dövlətin maliyyə dəstəyi ilə peşə təhsili müəssisələrinin yenidən qurulması, sistemin ali və orta ixtisas təhsili ala bilməyən gəncləri əhatə edə biləcək səviyyədə inkişaf etdirilməsi mümkün deyil. Sistemin inkişafına müxtəlif maliyyə mənbələrinin cəlb edilməsi ilə bağlı işlər görülməli, peşə təhsilinin sosial təminat tərəflərini nəzərə alaraq tələbə təqaüdlərinin artırılması, məzunların karyera qurma və təhsil artırma imkanlarının genişləndirilməsi vacibdir.

***Peşə təhsili sisteminin inkişafı istiqamətində təklif və tövsiyələr:***

Müasir iqtisadi şərait, peşə təhsili müəssisələrinin zəif maddi-texniki bazası, işəgötürğnlərin kadrlara olan çoxsaylı tələbləri, lakin onların hazırlanmasında az iştirakı, peşə təhsilinə marağın istənilən səviyyədə olmaması sistemin inkişafını ləngidir. İlkin dövr üçün aşağıda sadalanan məsələlərin həyata keçirilməsi təklif olunur:

1. Hazırki texnologiya fənninin əvvəllər möcvud olmuş əməktəlimini əvəz edə bilmədiyini nəzərə alaraq ümumtəhsil məktəblərində *əməktəlimi dərslərinin mahiyyətcə bərpası* və tədris səviyyəsinin yüksəldilməsi lazımdır.

2. Peşəyönümü işinin səmərəli təşkili və şagirdlərin doğru peşə seçiminə nail olmaq üçün orta məktəblərdə *peşə məsləhətçisinin* fəaliyyətini nəzərdə tutan *"Karyeraya kömək mərkəzi"* adlı konsaltinq xidmətinin təşkili məqsədəuyğun olar.

Peşə təhsili müəssisələrində isə *"Karyera və inkişaf mərkəzi"*nin təşkili məqsədəuyğundur. Mərkəz peşə və iş adamları ilə tələbələrin görüşlərini təşkil edir, vakansiyaları araşdırır, təhsil almaqla paralel işləmək ehtiyacı olanlara iş tapmaqda məsləhət və kömək göstərmək kimi fəaliyyətləri həyata keçirir.

3. Şagirdlər peşələrə yaxın getmirsə, peşələri onlara yaxın gətirmək lazımdır. Tam orta məktəblərin bazasında (10-11-ci siniflərdə) ilk peşə təhsilinin verilməsi gənclərin peşə-ixtisas təhsili ilə əhatəliliyini artırmaq üçün ən yaxşı variant hesab oluna bilər.

4. Nəzərə alsaq ki, peşə təhsili alanların əksəriyyəti aztəminatlı ailələrin övladlarıdır dövlət peşə təhsili müəssiələrində ödənişli təhsilin ləğv edilməsi və *təqaüdlərin artırılması* məqsədəuyğundur. Ödənişli təhsil o vaxt ola bilər ki, firmalar kadrların hazırlanması üçün konkret sifariş versin və ödəniş etsinlər.

5. Peşə təhsilini ali təhsilə səmərəli keçid pilləsinə çevirmək lazımdır. Ali təhsil və orta ixtisas təhsili müəssisələrinə qəbul oluna bilməyənlərin peşə təhsilinə cəlb edilməsi üçün tədbirlər həyata keçirməklə kontingent sayını artırmaq olar.

6. *Hərbi xidmətdən möhlət hüququnun* tətbiq edilməsi peşə təhsili müəssisələrinin kontingent sayının müəyyən qədər artmasına səbəb ola bilər.

7. Respublikamızda peşə təhsilinin nüfuzunun artırılması məsələsi prioritet məqsədlərdən biri kimi qarşıya qoyulmuşdur. Buna görə ictimaiyyat arasında ayrı-ayrı peşələrin nüfuzunu qaldırmaq üçün təbliğat xarakterli tədbirlərə ehtiyac vardır.

***Peşə təhsilinin məşğulluğa təsirini artırmaq üçün təklif və tövsiyələr:***

8. Müasir dövrdə PTS-nin inkişafı yalnız işəgötürənlərlə sıx əməkdaşlıqda mümkündür. Bunu nəzərə alaraq xarici ölkə təcrübələrində özünü doğrultmuş *dual təhsil, şagirdlik, istehsalatda öyrənmə* kimi təhsil növlərinin geniş tətbiqi üçün bütün imkanlardan istifadə edilməlidir. Müəssisələrə vergi güzəştlərinin edilməsi ilə motivasiya etmək olar ki, onlar şagirdlik yerləri açsınlar və sonradan həmin gəncləri işlə təmin etsinlər.

9. Səlahiyyətlərin ötürülməsi prinsipi ilə peşə təhsili müəssisələrinə müəyyən mənada sərbəstlik verilməlidir. Onlar özləri işəgötürənlərlə sıx əlaqələr yaratmaqda təşəbbüskar olmalıdır. Şagirdlik yerlərinin alınması və istehsalat təliminin keçirilməsi üçün iş yerləri ilə müqavilə bağlamaq peşə təhsili müəssisələrinin səlahiyyətlərinə daxil edilir.

10. Yaxşı olardı ki, bölgələrdə koordinasiya fəaliyyətini həyata keçirmək üçün ekspertlərdən ibarət *Regional ictimai təhsil xidməti* və ya *Regional ictimai məsləhət xidməti* tipində bir mərkəz yaradılsın. Mərkəzdə həm peşə təhsili müəssisələrinə, həm də işəgötürənlərə əməkdaşlıqda yaranan məsələlərin həllində lazımi dəstək verməyi bacaran ekspert-məsləhətçilər fəaliyyət göstərməlidir.

11. Peşə təhsilinin regional səviyyədə inkişaf etdirilməsinə çalışmaq lazımdır. Bunun üçün, regionlarda peşə təhsili müəssisələri dövlət və biznes strukturlarının vəhdətdə fəaliyyətini nəzərdə tutan *Təhsil klasterlərinin* yaradılması məqsədəuyğundur.

12. Məşğulluq Xidməti orqanlarının məsuliyyəti və səlahiyyətləri artırılmalıdır. Məhsuldar işə görə onların fəaliyyətinin qiymətləndirilməsi, mükafatlandırma və s. tədbirlərin təşkili yaxşı nəticə verə bilər. Xidmətin əhatəliliyini artırmaq, yerlərdə işsiz və işaxtaranların peşə təlimini təmin etmək üçün hər iqtisadi regionda *Regional Peşə Tədris Mərkəzinin* yaradılması vacibdir.

13. Yerli və xarici investisiyaların prioritet sahə kimi peşə təhsili sisteminə yatırılmasının təşviqi ilə peşə təhsilinin keyfiyyətinin və kontingent sayının artırılması, eləcə də məşğulluğun yaxşılaşdırılması mümkündür. Bunun üçün Dövlət tenderlərin keçirilməsi, qrantlar, *vergi güzəştlərinin edilməsi, öhdəliklərin qoyulması* və s. vasitələrdən istifadə edə bilər.

14. Peşə təhsili sisteminin inkişafına maliyyə dəstəyinin artırılması üçün dövlət səviyyəsində görülən tədbirlər sırasında PTM-lərin yenidən qurulması, maddi-texniki bazasının təkmilləşdirilməsi, tədris binalarının və yataqxanalarının təmiri üçün nazirliklər, iri istehsalat birlikləri, texnologiya və sənaye parklarının PTM-lərə sponsorluğa cəlb edilməsi vacibdir. Dövlət biznes nümayəndələrini hər vasitə ilə peşə təhsilində yaxından iştiraka sövq etməlidir: sosial tərəfdaşlığın möhkəmləndirilməsi; peşə təhsilinə dəstək üçün *birliklər, fondlar təşkil etməsinə təşviq*; maarifləndirmə, konsultasiya xidmətlərinin göstərilməsi təşkil edilə bilər. Məsələn, könüllü ianələr və sahibkarlardan tutulacaq vergilər hesabına formalaşacaq *Peşə Təhsilinə Dəstək Fondunun* yaradılması məqsədəuyğundur.

**Tədqiqatın əsas məzmunu müəllifin nəşr etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**


1.Qurbanova, İ.M. Regionlarda məşğulluğun təmin edilməsi iqtisadi inkişafın əsas amillərindən biri kimi //SDU,ADİU. İqtisadiyyatın davamlı inkişafı:problemlər, perspektivlər.Beynəlxalq elmi konfransın materialları.–Sumqayıt:27-28 aprel 2016,– s.451-453

2.Qurbanova, İ.M. Məşğulluğun artırılmasında peşə təhsilinin yeri // Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları (I cild). – Bakı: ADNSU, 24-25 may 2016-cı il, – s. 417-420

3.Qurbanova, İ.M. Müasir peşə təhsili sisteminin qarşısında duran vəzifələr // – Bakı: AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, – 2017 (1), – s. 37-44

4.Qurbanova, İ.M. Peşə təhsili sisteminin inkişafında sosial tərəfdaşlığın əhəmiyyəti dünya təcrübələrində // – Bakı: Kooperasiya elmi-praktiki jurnal, – 2017. №3 (46), – s. 242-248

5.Qurbanova, İ.M. İnsanların əməyə, peşəyə yönləndirilməsində islam dini dəyərlərinin əhəmiyyəti // BDU. İslam

həmrəyliyi-2017: reallıqlar və perspektivlər.Respublika elmi-metodik konfransının materialları. – Bakı: 25-26 aprel 2017-ci il, – s. 13-15

6.Qurbanova, İ.M. Azərbaycanda peşə təhsili sisteminin formalaşması: tarixi və inkişaf mərhələləri // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, – 2017. C. 65, № 4, – s. 279- 286

7.Qurbanova, İ.M. Peşə təhsili sistemində qlobal inkişaf meylləri // Strateji iqtisadi islahatlar: qabaqlayıcı vergi siyasəti. Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı: AMEA 12 oktyabr 2017, – s.138-142

8.Qurbanova, İ.M. Azərbaycanda məşğulluğun sosial-iqtisadi qiymətləndirilməsi // – Bakı: Kooperasiya elmi-praktiki jurnal, – 2018. №3 (50), – s. 129-136

9.Qurbanova, İ.M. Peşə-ixtisas təhsili kriminal hadisələrin qarşısının alınmasında əsas vasitələrdən biri kimi // SDU, "İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər" mövzusunda Beynəlxalq Elmi konfransın materialları. – Sumqayıt: 02-03 may 2018-ci il, – s. 410-412

10.Qurbanova, İ.M. Gənclərin peşə təhsili ilə əhatə olunmasina demoqrafik amillərin təsiri // Biznes Universiteti: "Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycanın inkişaf istiqamətləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallları. – Bakı: 3-4 may 2018-ci il, – s. 492-495

11.Qurbanova, İ.M. Gənclərin peşə-ixtisas təhsilinin keyfiyyətinin artırılmasında peşəyönümünün əhəmiyyəti // SDU: "Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri" mövzusunda Respublika Elmi konfransının materiallları. – Sumqayıt: 25-26 aprel 2019-cu il, – s. 410-412

12.Qurbanova, İ.M. Azərbaycanda gənclərin peşə-ixtisas təhsili ilə əhatə olunma səviyyəsi // AMEA İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunmuş "İqtisadi artım və ictimai rifah" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallları. – Bakı, – 2019, – s. 670-675

13.Qurbanova, İ.M. Peşə təhsili və təliminin məşğulluğa təsirinin qiymətləndirilməsi // – Bakı: AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, – 2020 (1), – s. 98-106

14.Qurbanova, İ.M. Azərbaycanda peşə təhsili sisteminin inkişafinin prioritet istiqamətləri (regional inkişaf kontekstində) //

SDU: “İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər“ mövzusunda Beynəlxalq Elmi konfransın materiallları. – Sumqayıt: aprel 2020.

15.Гурбанова, И.М. Основные приоритеты профессионального образования и обучения в повышении эффективной занятости // Вестник Челябинского государственного университета. Экономические науки. – 2020. Выпуск 68. №2 (436). – с. 102-114

16.Гурбанова, И.М., Азизова Г.А. Основные задачи сторон в развитии профессионального образования // II ReФорум «Управлять мечтой» Международная научно-практическая конференция. «Управление, экономика и общество 2020: проблемы и пути развития». Челябинский государственный университет, – 2020, – 15-16 апрель, – с. 30-34

17.Gurbanova, I.M. Effect of vocational education on labor productivity in the context of increasing employment / XV Международная научно-практическая конференция профессорско-преподавательского состава «Актуальные проблемы экономической деятельности и образования в современных условиях». Оренбургский филиал РЭУ им. Г.В. Плеханова. – 14 май 2020. – p. 223-228

18.Гурбанова, И.М. Развитие системы профессионального образования и обучения в контексте экономической безопасности страны // IV Международная научно-практическая конференция «Актуальные проблемы обеспечения экономической безопасности государства, регионов, предприятий». Институт экономики и сервиса Уфимского государственного нефтяного технического университета.–26 июнь 2020, – с. 74-77

19.Qurbanova, İ.M. Azərbaycanda peşə təhsili sisteminin müasir vəziyyəti və inkişaf perspektivləri // – Bakı: AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, – 2021 (4), – s. 109-117

Dissertasiyanın müdafiəsi 28 sentyabr 2022-ci il tarixində saat $11^{00}$ - da AMEA İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED1.10 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəh., H.Cavid pr., 115

Dissertasiya ilə AMEA İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA İqtisadiyyat İnstitutunun rəsmi internet saytında (*economics.com.az*) yerləşdirilmişdir.

Avtoreferat 04 avqust 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.06.2022
Kağızın formatı: A5
Həcm: 37811
Tiraj: 100